# *Ölkədə ən yüksək nəticə:* zərdablılar bu mövsümdə 27 tondan çox barama yetişdirmişlər

***❒ Zərdab istər əhalisinə, istərsə də ərazisinə görə respublikanın, necə deyərlər, orta rayonlarından hesab olunur. Ancaq son illər burada həyata keçirilən irimiqyaslı layihələr, aparılan geniş tikinti-quruculuq və abadlıq işləri, dinamik inkişaf və yüksəliş ən iri bölgələrlə belə müqayisə oluna bilər.***



Bu yerdə bəzi səciyyəvi fakt və rəqəmləri yada salmaq yerinə düşərdi: rayon kümçüləri bu mövsümdə respublika üzrə birinci yerə çıxmış, 27 tondan çox barama təhvil vermişlər. Hazırda taxıl biçini sürətlə davam edir. Hədəf belədir: zəmilərdən, ən azı, 55 min ton məhsul yığılmalı! Pambıqçılıq, meyvə-tərəvəzçilik, heyvandarlıq və başqa sahələrdə də göstəricilər əvvəlki illərlə müqayisədə xeyli çoxdur.

Bu yüksəlişin, inkişaf dinamikasının, əlbəttə, bir çox səbəbləri var. Ən əvvəl, Prezident İlham Əliyevin respublikanın bütün bölgələrinə olduğu kimi, Zərdaba da göstərdiyi diqqət və qayğı, bu istiqamətdə imzaladığı fərman və sərəncamlar, dövlət başçısının bölgəyə tarixi səfərləri, keçirilən görüş və söhbətlər, verdiyi məsləhət və tövsiyələr yada düşür. Digər tərəfdən, yerlərdə işin düzgün təşkili, təşkilat-idarəetmə məsələlərinin müasir tələblər səviyyəsində qurulması, daxili imkan və ehtiyat mənbələrindən yaradıcılıqla istifadə olunması, bütün sahələrdə intizam və tələbkarlığın artırılması uğurlar qazanılmasına müsbət təsir göstərir.

Heç uzağa getməyək. Kümçülərin builki nəticələrinə nəzər salaq. Biz rayonda olarkən barama təhvili yekunlaşmaq üzrə idi. Öyrəndik ki, cari ildə rayon üzrə 233 kümçüyə 480 qutu inkubasiya olunmuş barama qurdu paylanmışdır. Artıq son nəticə də məlumdur: 27 tondan çox barama hazırdır. Onu da dedilər ki, kənd təsərrüfatının ən gəlirli sahələrindən olan baramaçılıqda bu mövsümdə 611 rayon sakini işlə təmin olunmuşdur.

Qarşımızda bir siyahı var. Burada rayon üzrə ən çox barama əldə edən kümçülərin adları yazılıb. Onlarla tanış oluruq. Söhbət ənənəvi məşğuliyyət sahəsi olan baramaçılığa göstərilən dövlət qayğısından, yaradılan əlverişli şəraitdən, rayonda toplanan müsbət təcrübədən gedir. Bu cəhətdən Şıxbağı kənd sakini Surxay Xəlilovun deməyə sözü çoxdur. O, cari ildə rayon üzrə ən çox barama təhvil verən kümçüdür:

– Zərdab zəngin baramaçılıq ənənələri olan rayonlardan biridir. Ancaq, təəssüf ki, son illər heç bir əsaslı səbəb olmadan bu gəlirli sahə yaddan çıxmışdı. Prezident İlham Əliyevin kənd təsərrüfatının, xüsusilə pambıqçılıq və baramaçılığın inkişafına göstərdiyi diqqət və qayğı, atılmış konkret addımlar Zərdabda da bu sahənin dirçəlməsinə səbəb olmuşdur. Mən özüm cari ildə 2865 ton barama təhvil vermişəm. Bu isə kənd adamının, az qala, birillik büdcəsidir. Baramanın qiyməti də bizi qane edir. Ona görə hər yerdə olduğu kimi, biz də yeni tut tinglərinin yetişdirilməsinə, genişləndirilməsinə xüsusi fikir veririk.

Baramaçılıqda digər vacib amillərlə yanaşı, bol yem ehtiyatı da əsasdır. Ailə üzvlərimizlə qərara almışıq ki, gələn il bu göstəricilərimizi, ən azı, iki dəfə artıraq. Bunun üçün indidən müvafiq yerlər ayrılır, hazırlıq işləri görülür. Mən fürsətdən istifadə edərək kənd əməkçilərinə göstərdiyi bu diqqət və qayğıya görə Prezident İlham Əliyevə dərin minnətdarlığımı bildirirəm.



**Alıcanlı kənd sakini Ataş Rzayev də təcrübəli kümçülərdən hesab olunur. Onun builki göstəriciləri də yüksəkdir – 2 ton 517 kiloqram. Söhbət zamanı qabaqcıl kümçü maraqlı bir məsələyə də toxundu:**

– Biz nəsilliklə baramaçılıqla məşğuluq. Demək istəyirəm ki, bu sahənin, necə deyərlər, dilini yaxşı bilir, onu inkişaf etdirməyin sirlərinə bələdik. Əsas məsələ, şübhəsiz ki, sağlam toxumdur. Digər tərəfdən, barama yetişdirmək üçün münasib yerlərin seçilməsidir. Yemləmə, digər aqrotexniki tədbirlər vaxtında və keyfiyyətlə aparılmalıdır. Yalnız bu halda yüksək məhsuldarlıqdan, keyfiyyətli baramadan danışmaq olar.

Daha bir maraqlı cəhət ondan ibarətdir ki, indiki barama qurdu toxumları əvvəlkilərdən xeyli fərqlidir. Əvvəla, yetişmə müddəti xeyli azalıb. Digər tərəfdən, yemə tələbat da o qədər çox deyil. Özü də bu, təkcə mənim yox, bütün təcrübəli kümçülərin fikridir. Baramaçılığa olan həvəs və marağın artması da bir tərəfdən bu dediklərimizlə bağlıdır.

**İsrail Alıyevlə qəbul məntəqəsində görüşdük. Əhval-ruhiyyəsindən, danışığından hiss olunurdu ki, nəticədən razıdır.**

– Kənd adamlarında baramaçılığa olan marağın əsas səbəbi bilirsinizmi nədir? Təxminən, bir aya çəkilən zəhmət öz bəhrəsini verir. Həm vaxt



baxımından, həm də qazanc cəhətdən bundan daha sərfəli sahə tapmaq çətindir. Ona görə də hamı üzünü baramaçılığa çevirib. Ancaq burada bir məsələni də unutmaq olmaz. Necə deyərlər, çörəyi ver çörəkçiyə, birini də üstəlik. Gərək hər kəs bacardığı işin qulpundan yapışsın. Elə adamlar tanıyıram ki, məndən də çox barama toxumu götürüb. Ancaq məhsuldarlıq dəfələrlə aşağıdır. Deməli, təkcə həvəslə iş bitmir. Gərək bu sahədə müəyyən biliyin, təcrübə və bacarığın olsun.

Builki nəticədən narazı qalmağa haqqım yoxdur. 2 ton 371 kiloqram yüksək keyfiyyətli barama təhvil vermişik. Ancaq biz bunu heç də son hədd kimi qəbul etmirik. Ona görə ki, həm kifayət qədər yem bazamız, həm işçi qüvvəmiz, həm də münasib şəraitimiz var. Bütün bunlar isə onu deməyə əsas verir ki, gələn il məhsulumuz daha çox olacaqdır.

Biz başqa qabaqcıl kümçülərlə də tanış olduq. Öyrəndik ki, Məlikli kəndindən Azər Qurbanov, Əlibəyli kəndindən Əlibaba Babayev, Bıçaqçı kəndindən Çingiz Yusifov, Nəzəralı kəndindən Mirmahmud Əhmədov, Allahqulubağı kəndindən Abdulhəmid Babayev və başqaları daha yüksək nəticələr əldə etmişdir.

“Şəki-İpək” Açıq Səhmdar Cəmiyyətinin məsul işçisi Eldar Mustafayev bildirdi ki, Zərdab kümçülərinin yetişdirdikləri məhsul özünün yüksək keyfiyyət göstəriciləri ilə fərqlənir. Təhvil verilən məhsulun pulunun ödənilməsində də heç bir problem yoxdur. Belə ki, hər kiloqrama görə səhmdar cəmiyyət 5 manat, subsidiya şəklində isə 4 manat ödəyir. Bu isə kümçüləri qane edir.

Hazırda Zərdab baramaçılarının qələbə estafetini taxılçılar qəbul ediblər. Biz axırıncı dəfə rayonda olarkən bir daha bunun şahidi olduq. Belə ki, taxılçılar da son illərin ən yüksək nəticəsini, başqa sözlə desək, 55 min ton məhsul əldə etmək üçün böyük səy və işgüzarlıqla çalışırlar. Havalar əlverişli keçir. Ona görə də hər dəqiqənin qədrini bilir, biçin kampaniyasını itkisiz və optimal müddətdə başa çatdırmağa çalışırlar.

Bugünə kimi rayon üzrə 5900 hektar arpa, 1700 hektar buğda sahələrində biçin aparılmışdır. Məhsuldarlıq isə hələlik 28 sentnerdir. Zəmilərin hazırkı vəziyyəti, təcrübəli fermerlərin müşahidələri onu deməyə əsas verir ki, yekunda hər hektarın məhsuldarlığı daha çox olacaq. Əlbəttə, ayrı-ayrı istisnalar da var. Məsələn, rayonda elə fermerlər var ki, məhsuldarlıq hər hektarda 45--50 sentner təşkil edir. Deməli, əsas məsələ toxum seçimində, aqrotexniki tələblərə düzgün əməl edilməsində, işin təşkilindədir.

**“Aqrolizinq” Açıq Səhmdar Cəmiyyəti Ağcabədi Regional nümayəndəliyinin Zərdab bölməsinin rəisi Həmzə İsayev biçinin gedişindən razılıqla danışdı:**

– Hazırda zəmilərdə 40 taxılyığan kombayn işləyir. Digər maşın-mexanizm sarıdan da heç bir çətinliyimiz yoxdur. İlk günlərdə işi elə təşkil etmişik ki, boşdayanma hallarına yol verilmir. Əvvəlcədən tərtib etdiyimiz qrafikə əsasən, kim harda və nə vaxt biçinə başlayacağını dəqiq bilir. Bu isə əlavə narazılıq və söz-söhbətin qarşısını alır, işin gedişini sürətləndirir.

Ayrı-ayrı fermerlərin əldə etdikləri nəticələr fərəh doğurur. Məsələn, Laçın Qəribovun, Asif Mahmudovun, Elşən Xanlarovun fermer təsərrüfatlarında bu günə kimi hər hektardan 35 – 40 sentner məhsul götürülmüşdür. Yığımı itkisiz və operativ qaydada başa vurmaq üçün rayon icra hakimiyyəti yanında operativ qərargah da yaradılmışdır. Burada gün ərzində əldə edilmiş nəticələr ümumiləşdirilir, ortaya çıxan çətinliklər dərhal aradan qaldırılır, növbəti gün görüləcək işlər planlaşdırılır.

Pambıq sahələrində, heyvandarlıqda, yem toplantısında, bağ-bostanda da işlərin gedişi yaxşı təşkil edilmişdir. Bir sözlə, zərdablılar 2017-ci ili bütün sahələrdə yüksək göstəricilərlə başa vurmaq üçün bugünlərdə səy və fədakarlıqla çalışırlar.

***Ziyəddin SULTANOV,***
***“Xalq qəzeti”nin bölgə müxbiri***